# KİTAB-İ SİRETÜN-NEBİNİN TƏQDİMATI*

2024-cü il noyabrın 29-da Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Kitabxanasında 13-cü yüzillikdə yaşamış böyük Azərbaycan şairi İzzəddin Həsənoğlunun aləmlərə rəhmət olaraq göndərilmiş Mühəmməd peyğəmbərin həyatına həsr olunmuş "Kitab-i Siretün-Nebi" əsərinin təqdimatı oldu.

Bu qiymətli əsərin əlyazması tam şəkildə olmasa da müxtəlif xəttatlar-katiblər tərəfindən üzü köçürülmüş nüsxələri Türkiyənin, Bosniyanın, Almaniyanın və Macarıstanın çeşidli kitabxanalarında saxlanılır. Əlyazmalar qüsurlu olduğundan uzun illər çox qiymətli xəzinə dəyərindəki bu əsərin müəllifinin İzzəddin Həsənoğlu olduğu bilinməmişdir. Əlyazmalardakı müəyyən beytlərə görə əsərin müəllifinin Mühəmməd, Mühəmməd Xəlifə, Mühəmməd Haqqı, Dərviş Ögsüz olduğunu yazmışlar.

Şair İzzəddin Həsənoğlunun indiyədək türkcə iki, farsca bir şeirinin, bəzən də 4-5 şeirinin olduğunu yazırdılar. Türkiyədə doğulmuş, orada təhsil almış və uzun müddət TRT Azərbaycan şöbəsinə qəhbərlik etmiş qardaşımız, neçə ildir Bakıya köçərək buradakı Avrasiya Universitetində dosent işləyən Seyfəddin Altaylı uzun illər axtarışdan sonra "Kitab-i Siretün-Nebi" əsərinin geniş və təkmil nüsxəsinin surətini Finlandiya kitabxalarından tapa bilib. Yeni tapılan əlyazma üzərində 14 il işləyərək onu latın əlifbası ilə, ön söz və izahlarla nəşrə hazırlayıb. AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 8 fevral 2023-cü il tarixli qərarı ilə nəşri məsləhət görülən kitabı Ankaradakı Altınordu yayınlarında çap olunub. Bizə gəlib çatan 750 səhifəlik əsər əlavələr və şərhlərlə birlikdə, ümumilikdə 934 səhifədir. Çox qiymətli bir xəzinəni oxucularına ərmağan etmişdir.

Seyfəddin Altaylı kitab üzərində çox səylə çalışmış, müxtəlif tədqiqatçıların diqqətindən kənar qalmış və ya yanlış oxuduqları sözlərdən doğan şair adlarına aydınlıq gətirməyə çalışmış, əsərdə adı çəkilən sufi şeyxləri haqqında əlavə qaynaqlarda olduqca dəyərli bilgilər əldə edərək burada vermiş. O, fikirlərini əsaslandırmaq üçün əsərin müxtəlif nüsxələrindən misallar gətirməklə sübuta yetirmişdir.

Seyfəddin Altaylı Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun doktorantıdır. Buna görə də kitabın təqdimatı AMEA Əsaslı Kitabxanasının böyük salonunda keçirilirdi. Mən kitabın təqdimatından iki gün əvvəl Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron zalındakı üç saatdan artıq çəkən "Kitab-i Siretin-Nebi" ilə bağlı doktorluq dissertasiyasının müzakirəsində də iştirak etmişdim. Müzakirə Orta əsrlər Azərbaycan ədəbiyyatı, Ortaq başlanğıc və intibah dövrü Azərbaycan ədəbiyyatı, Türk xalqları ədəbiyyatı şöbələrinin əməkdaşlarının iştirakı ilə keçdi. Doktorantın elmi rəhbəri akademik İsa Həbibbəylidir. Filologiya elmləri doktoru, professor İmamverdi Həmidov yığıncağı açaraq Seyfəddin Altaylını təqdim etməklə onun apardığı elmi araşdırmalar haqqında qısa məlumat verərək sözü doktoranta verdi. Doktorantın çıxışından sonra elmi əməkdaşlar tədqiqat işinin məziyyətlərindən danışdılar. Doktorant verilən sualları cavablandırıb iradlara münasibətini bildirdi. Seyfəddin Altaylının işinin yüksək qiymətləndirilməklə növbəti mərhələyə buraxılması qərara alındı.

Bu sətirlərin müəllifi də doktorantın hər çıxışa verdiyi şərh və izahatları dinləmişdi.

Kitabın təqdimatından sonra bir neçə gün ərzində əsərin ayrı-ayrı hissələrini, aləmlərə rəhmət olaraq göndərilmiş Mühəmməd Salavatullahın dünyaya gəlişi, həyatının ayrı-ayrı anları, İslamı səylə təbliği, döyüş səhnələrində belə müşrikləri, kafirləri İslama dəvəti, hər vəziyyətdə olduqda Allaha təvəkkül, bağlılıq döyüş vaxtı silahsız insanlara, qocalara, qadınlara, uşaqlara rəhm etmək, düşmən belə olsa əmanəti sahibinə qaytarmaq və digər İslami fikirlərin Quranla həmahəng səsləndiyinin şahidi oluruq.

Əsərdə habelə möminlərin mövlası, Həzrət Əlinin döyüş səhnələrindəki şücaətləri, Həzrət Həmzə digər İslam qəhrəmanları ilə bağlı səhnələrlə bağlı o dövrdə İslama, Mühəmməd Salavatullaha qarşı olan düşmənlərin necə xar olmaları və sonda təslim olmaları öz əksini tapmışdır.

Əsərdə bir yerdə Əbu Cəhlin oğlu Məkkədə bir gün meydanda güləş yarışında bir neçə nəfərə habelə özünün böyük qardaşına da qalib gəldikdən sonra Həzrət Mühəmmədə üzünü tutub qürrələnərək onu güləşməyə dəvət edir. Allahın Rəsulu onunla ertəsi gün güləşəcəyini bildirmiş, ertəsi gün faxir libasını geyinərək əmmaməsini də bağlayıb meydana çıxmışdır. Güləşdən əvvəl Allahın Rəsulunun əmiləri ona rahat güləşməsi üçün libasını çıxarmasını tövsiyə etdikdə bu zaman Həzrət Mühəmməd müşrikin natəmiz əlinin onun bədəninə toxunmaması üçün belə geyindiyini bildirir. Hz.




Mühəmməd, Amr b. Əbu Cəhlə üzünü tutub: Ya Amr mənim bir ayağımı yerdən ayıra bilsən özümü basılmış qəbul edəcəyəm deyərək onu dəvət edir. Amr dəfələrlə hücum çəkib nə qədər çalışsa da, Peyğəmbərin ayağını yerdən ayıra bilmir, qantərə batmış halda oturub dincələrək bütləri Lat və Uzzadan kömək diləyərək bir də çalışıb həmin vəziyyətdə təngnəfəs olsa da, təslim olmağını etiraf etmək istəmir. Peyğəmbərin əmiləri Allahın Rəsuluna güləşi başa çatdırmağını deyəndə Allahın Rəsulu rəqibi Əbu Cəhlin oğlu Amrə belinə bir kəmər bağlamasını deyir:

"Pes Resulullah didi gel ya Amr.
İllah bağla belinə möhkəm kemer 1016"
"Geldi turdu Mustafa sundı haman
Kuşağından dutdı virmedi aman 1018"
"Didi bismillahir-Rehmanir Rehim.
Qadir i ğalib Kevi Kehru-Hekim 1019"
"Pes yerinden çekdi götürdü anı.
Şöyle kaldırdı yere urdı anı 1020"
"Yarıldı başı yire ahdı kanı,
Delindi arkası çıkdı canı 1021"
"Resul aslan kibi üstündə durdı
Bir iki pehlusine depmük urdı 1022"
"Dedi turğıl ey melun ey edebsüz
Dexi heddinden artık söyleme söz 1023"
"Ebu Cehlün haman könline ondan
Edavet kaldı bağlandı o günden 1031"

Kitabı oxuduqca bir çox mətləblərdən hali olursan. Bizə Peyğəmbərlə ilk namaz qılanın Həzrət Əlinin olduğu məlum olsa da, bu günədək oxuduğumuz bir çox dini ədəbiyyatlarda peyğəmbərlə ilk namaz qılan kişinin Əbubəkr olduğu qeyd olunur. Yeddi yüz il əvvəl yaşamış və bu kitabı qələmə alan şairimiz Mühəmməd Salavatullahla ilk namaz qılan kişinin hz. Əli, sonra Cəfəri Təyyarı qeyd etməklə hz. Əbubəkrin Əbutalibin evində hz. Əlinin quyudan su çəkərək Peyğəmbərlərlə birgə namaz qılmalarını göstərir:

"Atile uğrar Ebu Talib görür.
Mustafayile Eli bile durur 2063"
"Cefer ardındaydı in tiz var dedi
Mustafanın sol yanında dur dedi 2064"
"Anlarun ile bile kılğıl namaz
Sahib dövlet olasan ehli raz 2065"
"Mustafa çünki bakar anı görür
Geldi Cefer dexi yanında durur 2068"
"Könli şad oldu dedi Cefer sana
Kıl beşaret canuna önden-sona 2068"
"Hak iki kanat vire kim uçasın
Yer üzünden ta behişte keçesin 2069"

Burada şair Allahın Rəsulunun illər sonra Cəfəri Təyyarın qanlı döyüşdə hər iki qolunun kəsiləcəyini qəhrəmanın İslam bayrağını dişləriylə qaldırması Allahın onun nəşinin düşmənə görünməsinin qarşısını alıb ona iki qanad verərək cənnətə aparmasına işarə etmişdir.

"Pes dua kıldı elin aldı Resul
Ol Ebu Talib evine geldi ol 2308
Tiz buyurdu Eliye çekdi su
Pes Ebu Bekre dedi küsl itdi bu 2309
Aldı abdest kıldılar bile namaz.
Oldu Sıddıka haman dem keşfi-raz 2310"

İyirmi ilə yaxın ömrünü bu kitabın ərsəyə gəlib bizə çatması üçün gözlərinin nurunu sərf edən Seyfəddin Altaylı ədəbiyyatımız üçün böyük iş görmüşdür. Kitabı varaqladıqca qardaşımıza minnətdarlıq edir, Həsənoğluna rəhmət diləyirəm.

Şair hz. Əlinin Allahın Rəsuluna olan məhəbbətini və onun yolunda ölməyə hazır olmağını göstərmək üçün necə təşbehlər gətirir.

"Hak Teala Cebrail Mikaile
İkisine dexi emr itdi bile 4839
Birünizden birünizin ömrini
Artık itdim kankunuzdur kim onu 4840
Birine bağışlar ol ikrar ider
Qardaşınun yoluna işar ider 4841
Didi bunlar biz dilerüz yaşumuz
Artuk ola taet ola işimüz 4842
Dedi niçün Eli bigi birünüz
Olmadı uşağunuz erünüz 4843
Kim Mühemmed yolına ol canını
Terk ider gör nicedir imanını 4844
Razı oldı canı kurban itmege
Könli virmez reddi ferman itmege 4845
Ömrinün varlığını işar ider
Döşeginde yatmağa ikrar ider 4846"

Həsənoğlunun əsərini varaqladıqca onun Həzrət Mühəmmədin həyatı boyu yanından ayrılmayan Həzrət Əlinin həyat yolunu, döyüşlərini vəsf etdiyi aydın olur. İzzəddin Həsənoğlunun bu əsəri təkcə Azərbaycanda deyil, ümumilikdə Türk dünyasında bu mövzuda yazılan ilk məsnəvidir.

Həzrət Peyğəmbərin meracı əsərdə belə təsvir olunur.

"Rebbiül-evvel ayı kutlu ayda
Döşenbe gicesi devletlü ayda 2810
Yatsuyı eshab ile kıldım kodum
Vitir kim dün-ile duram kılam didim 2811
Geliben Ümmi Haninün evinde
Kerar oldum anun ben döşeginde 2812

Adı Faxitə olan Ümmi-Hani Həzrət Əlinin böyük bacısı olmuşdur. Aləmlərə rəhmət olaraq göndərilmiş Mühəmməd Salavatullah uşaq yaşlarından babası Əbdül Müttəlib tərəfindən oğlu İmrana - Əbu Talibin himayəsinə verilərək onu göz bəbəyi kimi qorumağı tapşırmışdı.

**** Beytlərin sağındakı nömrələr əsərdə yer tutan beyt nömrələridir.***

*(Davamı 7-ci səhifədə)*

# KİTAB-İ SİRETÜN-NEBİNİN TƏQDİMATI

*(Əvvəli 6-cı səhifədə)*

Əbu Talib son nəfəsinə kimi Peyğəmbəri qorumuş, himayə etmiş, xanımı Fatimə binti Əsəd ona analıq etmişdi. Allahın Rəsulu ümmi Hani ilə bir evdə böyümüş və bu xanım ona çox əziz idi. Ümmi Haninin əri Hüveyrə təbirəvan şair Məkkənin varlı adamlarından idi. Mühəmməd Salavatullaha peyğəmbərlik verildikdən sonra islamı ilk qəbul edən və namaz qılan Əli və sonra Cəfəri-Təyyar olmuş, Qüreyş sürəsindən sonra islamı qəbul edənlər artdıqda Allahın Rəsulunun təklifi ilə Ümmi-Hani də islamı qəbul etmiş əri Hüveyrə isə qəbul etməyib Taifə qaçaraq orada kafir kimi ölmüşdü. Allahın Rəsulu Ümmi-Haniyə evlilik təklif etsə də Faxitə övladlarının qayğıları ilə Peyğəmbərə yük olmamaq üçün bu evlilikdən imtina etmişdi. Peyğəmbər də onun bu hərəkətini yüksək dəyərləndirmişdi. Ümmi-Haninin evinin qapısı Kəbə evinə tərəf açılan 23 qapıdan biri olub bu gün də var.

Allahın Rəsulu bu evi çox bəyənirdi və Taif səfərindən qayıdarkən Həzrət Əli ilə Ümmi-Haninin evinə gələrək burada yatmış və o gecə də buradan - Məscidul Həramdan Meraca getmişdi. Həzrət Əlinin Peyğəmbərlə bir yerdə bu evdə olması bir yerdə yazılmasa da bu yəqindir ki, Allahın Rəsulu Ümmi-Haninin evinə tək getməzdi və bu da məlumdur ki, Əli Peyğəmbərin evində yaşamaqla həmişə bir yerdə olur və Əli onun can keşikçisi idi.

Ümmi-Hani həm də Siyahi Sittə ilk hədis söyləyənlərdən olmuşdur.

Uca Allah İmran ailəsinə çox böyük nemətlər bəxş etmişdi. İmranın xanımı Fatimə binti Əsəd doğum ərəfəsində Kəbə örtüyündən yapışıb Allahdan kömək diləyərkən Kəbənin divarı aralanmış Fatimə Kəbə evinə girərək burada Əlini dünyaya gətirmişdi.

Allah bu ailəyə aləmlərə rəhmət olaraq göndərdiyi Mühəmməd Salavatullahı böyüdüb himayə etməyi, islamı ilk qəbul edib namaz qılan Mühəmməd Salavatullahdan sonra möminlərin mövlası Həzrət Əli və Cəfəri-Təyyar kimi oğul bəxş etməklə şərəfləndirmişdi.

Mühəmməd Salavatullahın meraca getməsinin də məhz İmran ailəsindən olan Ümmi-Haninin evində baş verməsi Allahın Təqdiri - Qədəri olmaqla bu ailəyə olan rəhmətin təzahürüdür. Allah İmranın - Əbu Talibin və xanımı Fatimə binti Əsədin ruhunu Şad etsin İnşəallah Amin!

Yaturiken Cebrail avazı geldi
Kanadınun üni avazı geldi 2813
Pes haman durdum ana virdim salam
Ol cavab virüb dedi kim ya İmam 2814
Hak Teala veribdi sana salam
Xas tehiyyetler dexi dur kıl qiyam 2815
Pes buyurdı kim dilerem dedi hem
Kim bu gice göglere basğıl kedem 2816”

“Haman dem Umi Haninün evinden
Çıkub vardım Herem içine andan 2824”

Burada Burağa minib Qüdsə gəlirlər. Allahın Rəsulu Mühəmməd Salavatullah aşağı enib Məscidül Əqsaya girib peyğəmbərlərin önündə imamlıq edib namaz qıldıqdan sonra göyə uçmuşlar. Birinci təbəqədə Adəmi, ikinci təbəqədə İsa İbn Məryəmi və Zəkəriyya oğlu Yəhyanı, üçüncü təbəqədə Yusifi, dördüncü təbəqədə İdrisi, Davudu Süleymanı, beşinci təbəqədə Musanı görmüş və yeddinci asimanda İbrahimlə görüşüb sonra Allah dərgahında namaz üçün tapşırıq almışdır.

Qayıdarkən Musanın qatına çatdıqda Musa ona geri qayıdıb namazın sayını azaltması üçün Allaha yalvar demiş. Beləliklə, Allahın Rəsulu bir neçə dəfə dərgaha gedib yalvardıqdan sonra gündə beş dəfə iki rükət olmaqla 10 rükət namaz qılmaq tapşırığını alıb geri qayıtmışdır.

Yeri gəlmişkən qeyd etmək istərdim ki, Allahın Rəsulu Qureyş surəsi nazil olanadək namazı ailə içində iki rükət olmaqla hz. Əli və xanımı Xədicəyi Kübra ilə qılmışdır.

Ona İslamın təbliği və yayılmasına icazə verildikdən sonra ümmətlə birgə yenə uzun müddət namazı iki rükət qılmışlar. İmam Hüseyn doğulduqdan sonra namazın rükətləri artırılmış, iki rükət İmam Əli zöhr, iki rükət İmam Həsən əsr, bir rükət Rəsulullahın sevimli qızı aləmlər içində ən üstün xanım Seyyidətül Nisail Aləmin Fatiməyi Zəhra üçün, İki rükət İşa namazında Şəhidlər ağası, cənnət cavanlarının Seyyidi İmam Hüseyn xatirinə artırıb qılmışdır ki, biz indi belə qılırıq - 17 rükət. Nəsiminin dediyi kimi Əhlibeyt ilə özü on yeddidir.

Meracdan qayıtdıqdan sonra Məkkə əhli əvvəlcə Peyğəmbərə inanmır. Allahın Rəsulu Qüdsü gördüyü kimi təsfir etdikdə ona inananların sayı artır.

Əsərin təhlili bir məqaləyə sığmaz və mən o iddiada deyiləm.

Bir qədər əsərdə Məkkənin fəthindən danışmaq istərdim. Belə ki, kitab Məkkənin fəthi ilə bitir. Məkkənin fəthində Allahın Rəsulu böyük bir qoşunla gələrək Məkkə yaxınlığındakı yüksəklikdə yerləşir. Burada gecələyib səhəri Məkkəyə hücum nəzərdə tutulur. Yüzlərlə tonqallar qurulur. Məkkənin rəhbəri Əbu Süfyan bu qədər tonqalın



alovlandığını minlərlə silahlının buraya gəldiyini görüb öz atına minib oraya gəlir. Peyğəmbərin əmisi Abbas da atın belində qoşunun arasında gəzirmiş. Əbu Süfyanı görüncə ona yaxınlaşıb tez öz atından enib onun tərkinə minməyi əmr edir. Əlinin onu gördüyü halda başını vuracağından qorxaraq onu xəlvətcə Peyğəmbərin çadırına doğru aparır. Həzrət Əli bu anda onları görüb əlini qılınca apararkən əmisi Abbas Əliyə o mənim amanımdadır öldürmə, görək Rəsulullah nə qərar verəcək. Allahın Rəsulu Əbu Süfyana Allahın təkliyini, Mühəmmədin onun rəsulu olduğunu deməsini istəyir:

“Dedi virgil tanukluk birdür Allah
Dehi Tanrı yok ol kadirdür Allah 11959
Tanıklık vir Mühemmeddür Resuli
Ol Allahun ulu sevgülü kulı 11960”

Ebu Süfyan:

“Ağır gelür dilimde diyemezem
Eger şeker dehi olsa yimezem 11962”

Abbas başının kəsiləcəyini deyəndə:

“Ebu Süfyan bunaldı kaldı bi-car
Resulullah Mühemmed didi na-çar 11975
Resulullah işitdi çün bu sözi
Haman dem xişmi gitdi güldi yüzi 11976”

Əbu Süfyan Allahın Rəsulundan ayrıldıqdan sonra yolda fikrini dəyişərək gedib qoşun toplamağa qərar verir. Mələk Cəbrail Peyğəmbərin yanına enərək Əbu Süfyanın dönük çıxdığını, fikrini dəyişdiyini dedikdə, Allahın Rəsulu Abbası çağırıb Əbu Süfyanı əli-qolu bağlı gətirməsini əmr edir. Abbas atını çaparaq bir dərədə Əbu Süfyana çatıb:

“Didi Abbas ey Ebu Süfyan yine
Asi mi kıldı seni şeytan yine” 11992

Abbas Əbu Süfyana Peyğəmbərin yanına geri dönməsini deyəndə:

“Yürü git katuna ayrık varmazam
Bir saat katında dehi durmazam” 11997
“Döndü Abbas ardına ün eyledi.
Ya Eli kelmez Ebu Süfyan dedi” 11998
“Pes Ebu Süfyan dedi kanı Eli
Didi ardımca biledir ol Veli”. 11999
“Dedi ya Abbas billah sen ana
Kim beni virme mütiyem ben sana”. 12000

Abbas atından enib Əbu Süfyanın gülbəndini yırtıb əl qolunu möhkəm bağlayıb boynuna sarıdıqdan sonra onu Allahın Rəsulunun hüzuruna gətirirlər. Əbu Süfyan təkrarən Allahın Rəsuluna biət etdikdən sonra, Allahın Rəsulu sevinir və onu Məkkəyə yola salır:

“Dedi ya Ebu Süfyan yüri var
Kamu kıl Mekke ehlin sen xeberdar 12122
Her kim ki senin gelse ivüne
Sığınsa dört yanun tale ivine 12123
Veyahud Kebeye Sübhan evine
Kaçıb sığına ol Sultan ivine 12124
Emin ola kamunun malı canı
Velikin şol fülan ile fülanı 12125
Kim anlar öleceklerdür bilürem
Oları bulıcağaz öldürürem 12126
Ebu Süfyan sevindi oldı hürrem
Segirtdi Mekkeye gitdi haman dem 12127”

Allahın Rəsulu insanların nahaq yerə qırılmasını istəmirdi. Məkkənin fəthindən sonra Kəbə evi bütlərdən təmizlənərkən maraqlı hadisələr baş verir. Əsərdə Allahın Rəsulu Əliyə deyir ki, gəl çıx çiynimə yuxarıda çəkilmiş İbrahimin şəklini sil. Əli deyir ki ya Rəsulullah mən cavanam siz mənim çiynimə çıxın. Peyğəmbər buyurur ki,

“Ya Eli götüremezsindir beni
Kimse götürmez nübüvvet möhrini 12330
İllah gel sən omuzuma çık dedi
Sureti boz gider andan yık dedi 12331
Çıkdı Peyğember omuzına Eli
Sureti bozdı giderdi ol Veli 12332
Pes Resulullah dedi kim ya Eli
Seni Cebrail götürdi ya Veli 12333
Ellerin dutardı Mikayıl dehi
Seni anlar götürdi ya ehi 12334
Gör ne teşrif buldı anda ol Veli
Basdı Peyğember omuzına Eli 12335
Ol omuzdur olamaz kim erşde ol
Hak Teala hezretin gördi Resul 12336
Ol mübarek omuza Hak el kodı
Sen benim dostum hebibimsin dedi 12337
Şöyle kim küdret eli parmakları
Mustafa sinesine saldı nuri 12338
Cümle elm-i evvelin ve axirin
Bildi ol nur ile qamusın yekin 12339”

Kəbənin içi bütlərdən təmizləndikdən sonra Allahın Rəsulu Əliyə Kəbənin damına çıxmağı və müşriklərin ən böyük bütü Hübeli damdan aşağı atmağı əmr edir:

“Yüri var sen tama çık ya Pehlüvan
Ol büti kopar yerinden tut haman 12291
Götür pertab idib atğıl yabana
Tamaşa eylegil ana tapana 12292
Kim Kureyşin ol ulu məbudidir
Anları mehrum iden mescudidir 12293
Şah-ı Merdan Mekke tamına çıkar
Mekkenin kevmi kamu geldi bakar 12294

Girdi şeytan putda feryad eyledi
Pes çığırdı kevmine koman dedi 12300
Cıkdı putdan bir kara otlu tütün
Mekkenin şehrini toldurdı bütün 12301
Şöyle kim görünmez oldu gün dexi
Geldi andan korkulu çok ün dehi 12302
Şah-ı Merdan bir ezimet okudı
Ol puta yapışdı dive kakıdı 12303

*(Davamı 16-cı səhifədə)*

# KİTAB-İ SİRETÜN-NEBİNİN TƏQDİMATI

*(Əvvəli 7-ci səhifədə)*

Çekdi kopardı yerinden pes anı
Götürübən atdı ol Hak Aslanı 12304

Pes Resulullah buyurdı ol taşı
Kim yuvaladı getürdi çok kişi 12307
Ol Beni-Şeybe kapusında kodı
Kim giren cıkan bunı bassun dedi 12308"

Əsərdə məhz Məkkənin fəthində Allahın əmriylə Cəbrail vasitəsilə Əlinin Allah Rəsulunun vəsisi olması xəbəri verilir.

İzzəddin Həsənoğlu əsərdə İslamın təbliği, müxtəlif döyüş səhnələri, bu döyüşlərdə müsəlman olmayan qadınların da döyüşmələri, məhəbbət səhnələri, Həzrət Əlinin sevənləri qovuşdurması, Nizaminin "Xosrov və Şirin"də Fərhadın məhəbbəti öz əksini tapmışdır.

Əsəri oxuduqca şairin "Qurani-Kərimi" Peyğəmbərin dövründə baş verən hadisələri mükəmməl bilməklə möhkəm yaddaşa malik olub o dövrdə Məkkədə və digər yerlərdə döyüşlərdə iştirak edən yüzlərlə insanın adını çəkməklə onları bizə tanıtdırmışdır.

Əsərdə Bəni Kureyzə savaşı çox maraq doğurur. Belə ki, Həzrət Əlini mancanağa qoyub qalaya atırlar. Həzrət Əli göydən quş kimi enərək düşmən ordusunun içinə düşüb:

"Çün havaya çıkdı ol Hak Aslanı
Kakdı kılıc arkasilə kalkanı 7944
Nere urdı bir keti ün eyledi
Ben Eliyem bilmeyen bilsün dedi 7945"

Düşmən qoşunu pərən-pərən düşüb hərə bir tərəfə qaçır. Həzrət Əli qalanın qapısını yerindən qoparıb atır İslam qoşunu qalaya girərək qalib olurlar.



Seyfəddin Altaylı təbii ki, çox böyük zəhmət çəkib əsəri müasir türk dilində oxuculara çatdırmışdır.

Mən arzu edərdim ki, əsərin şairin yazdığı o vaxtkı türk dilində çapına nail olsun. Düşünürəm ki, şairin əsərini olduğu kimi latın əlifbası ilə üzünü köçürüb üzərində işləmişdir. Şairin öz dilində yazdığı əsəri bütün türkdilli xalqlar sərbəst oxuya bilərlər və bu çox maraqlı olar. Əsərin Azərbaycan dilində də çap olunması çox yaxşı olar.

Yazımın sonunda bu kitabın Aləmlərə rəhmət olaraq göndərilmiş Mühəmməd Salavatullahın həyat yoluna həsr olunduğundan, Uca Allahın meracda olarkən öz Rəsulinə necə dəyər verməsi ilə bağlı tərifini şairin diliylə oxucularımıza hədiyyə etmək istərdim.

"Ben mekamı Mahmudı verdim sana
Sevgülüsin kamu halkdan sen bana 3220
Elm-i esma virdüm ise Ademe
İsmi-ezem virmişem sen hateme 3221
Ademe gər secdə kıldise melek
Ayağun altında kaldı ne felek 3222
Ger ben İbrahim didimse Xelil
Sen hebibümsün hekiket şöyle bil 3224"

Uca Allah Həsənoğluna rəhmət eləsin, ruhu şad olsun. Amin.

Bu yazımda məqsədim ancaq "Kitab-ı siretün-nebi"ye həsr etmək olmuşdur. Yeri gəlmişkən həm də şair olan Seyfəddin bəyin Azərbaycan ədəbiyyatının təbliği baxımından önəmli xidməti böyük şairimiz Mirzə Ələkbər Sabirin "Hophopnaməsi"ni müasir türk əlifbası ilə oxucusuna təqdim etmiş və başa düşülməsi çətin olan sözlərin anlamını ətək yazısında vermişdir. Həsənoğlunun kitabının təqdimatında "Hophopnamə"-nin də təqdimatı olmuş və hər iki əsər haqqında da görkəmli alimlərimiz akademik İsa Həbibbəyli, Türkiyədən gəlmiş Avrasiya yazarlar birliyinin rəhbəri Ufuk Tuzman, xalq şairimiz Sabir Rüstəmxanlı, AMEA Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, professor Qəzənfər Paşayev, Aygün Bağırlı və digərləri öz sözlərini dedilər.

Bu yerdə böyük şair İzzəddin Həsənoğluna bir daha Allahdan rəhmət, əsəri bizə təqdim edən Seyfəddin Altaylıya uğur diləyirəm. Amin.

***Hacı Mehman FƏRZULLAYEV***